# "QANLI QIZIL TOY"un səhnə təcəssümü



Nigar Məmmədova

C.Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrı Akademik Milli Dram Teatrının səhnəsində növbəti yeni səhnə əsərini - İftixarın "Qanlı qızıl toy" tamaşasının premyerasını təqdim etdi. Xalq artisti Rafael Dadaşovun 70 illiyinə Milli Dram Teatrı ilə İrəvan Azərbaycan Dram Teatrının birgə layihəsi kimi hazırlanmış tamaşa, eyni zamanda Şuşanın işğalının 25 illiyi ərəfəsində şəhərinin müdafiəsi uğrunda döyüşmüş qəhrəmanlarımıza həsr olunmuşdu.

Şair-dramaturq İftixarın "Süsən və Osman" qəhrəmanlıq dramı əsasında hazırlanan və "Qanlı qızıl toy" adı ilə təqdim olunan faciədəki hadisələr yeni teatr dili ilə diqqət çəkir. Müəllif əsərdəki hadisələri ümumbəşəri humanist ideallar fonunda təqdim edir. Quruluşçu rejissoru Rafael Dadaşov və ikinci rejissoru və bədii tərtibatçısı Nicat Mirzəzadə, bəstəkarı əməkdar incəsənət xadimi Cavanşir Quliyev, geyim rəssamı Məhsəti Eldarova olan tamaşadakı mizanlar çox dəqiqliklə əsərin ideya məzmununun açılmasına yönəldilib. Rejissor dəsti-xətti, rejissor düşüncəsi tamaşanın hər bir nöqtəsində, aktyor oyununun bütün məqamlarında özünü aydın hiss etdirir. Tamaşa psixoloji dramatizm və dərin fəlsəfi mahiyyət kəsb edən konsepsiyada təqdim olunur. 1992-ci il mayın 7-də Şuşa və onun müdafiəsi uğrunda gedən döyüşlər ətrafında cərəyan edən hadisələri əks etdirən tamaşanın süjet xəttinin mərkəzində əlli il bir dam altında ömür sürmüş iki ahıl insan Osman və Süsən obrazları dayanır. Şuşanın boşaldılması xəbərindən sarsılaraq pərişan halda evin ortasında qoyulmuş köhnə sandığın üstündə oturmuş qocalar qəfil içəri daxil olan Azərbaycan əsgərinin həyəcan və təlaşını soyuqqanlı qarşılayırlar. Əsgər onları aparmaq üçün gəldiyini anlatsa da, şəhərdə kimsənin qalmadığını söyləsə də, nə Osman, nə də Süsən yerlərindən tərpənmirlər. Əsgər tüfəngini qocalara tuşlayıb onları evdən çıxarmağa çalışır. Bu an Osman qəzəblənib cəld hərəkətlə sinəsini tüfəngin lüləsinə dirəyir, heç yerə getməyəcəyini, ya kişi kimi torpağını, elini, obasını qoruyub vuruşacağını, ya da elə buradaca öləcəyini bildirir.

Xalq artisti Rafael Dadaşov Osman rolunda alicənab, dəyanətli, namuslu, mərdanə, yüksək etik-mənəvi keyfiyyətləri ilə ehtiram qazanan, insanlığın bədii simvolunu, Azərbaycan kişisinin ümumiləşmiş bitkin səhnə obrazını yaradır. Səksən yaşlı Berlin qəhrəmanı Osman dünyanı dağıdan, məhv edən müharibə törədənləri allahsız adlandırıb lənətləyir. Osmanın öz həqiqəti və ülviyyəti var: mərdanə hisslərlə vətənə, torpağa bağlılıq, odu-ocağı sönməyə qoymamaq, ailə bağlarını həssaslıqla qorumaq. Buna görə də o, Kişi kimi öz evində ölməyi, torpağı qoyub qaçmaqdan üstün sanır.



Osmanın həyat yoldaşı olan erməni Süsən bütün varlığı ilə sevdiyi ərini və ocağını düşmənlərdən qorumaq səbəbi ilə ona yalvarır ki, o, buradan çıxıb getsin. Osmansa Şuşanı tərk etməyəcəyini israr edir və qəlyanını yandıraraq Süsənə Böyük Vətən müharibəsindəki qələbənin son günlərində başına gələn bir əhvalatı nəql edir. Osman - Rafael Dadaşov əynindəki libasını dəyişir, eynəyini taxır və Hans obrazını oynayır. Tamaşaçı illər öncə 1945-ci il mayın 7-də Stalinqrad cəbhəsində döyüşmüş sovet əsgəri Osmanın təsadüfən tanış olduğu bir alman ailəsində rastlaşdığı unudulmaz görüşün şahidi olur.

İki yaşlı alman - Hans (R.Dadaşov) və Suzanna (E. Şahbazova) sakitcə evin ortasında qoyulan sandığın üstündə oturublar. Bu an qəfildən otağa əli silahlı sovet əsgəri daxil olur və tüfəngi qocalara tuşlayır. Tamaşaçı Hans və Suzannanın əli tüfəngli düşmən əsgərinə qarşı ehtiramından, onu isti yeməyə qonaq etmələrindən, bərabər bir süfrə başında qızıl toylarını necə sevinclə qeyd etdiklərindən, qarşılıqlı ülvi məhəbbətlərindən təsirlənir. Hans və Suzanna rus əsgərinin - Osmanın Azərbaycandan - Şuşadan olduğunu eşidəndə sevinirlər. Bakıda doğulmuş Suzanna, uşaqlıq dövründə istirahət etdiyi Şuşa ilə bağlı xatirələrini yarırus, yarıalman dilində yadına salır və Osmandan onlar üçün mahnı oxumasını xahiş edir. Osmanın ifa etdiyi "Bayatı-Şiraz" muğamı onları təsirləndirir. Bu arada yoldan keçən alman vətəndaşı Henrix musiqi səsinə evə daxil olur. Henrix akkardeonda İ.Baxın musiqisini çalır, Osman isə uca səslə oxuyur. Hər ikisi bu melodiyanın öz xalqlarına məxsus olduğu ilə bağlı mübahisə edirlər. Hans və Suzanna mübahisəni kəsib onları qızıl toylarının şərəfinə şnaps içməyə, yeməyə qonaq edir. Və məlum olur ki, Henrix yaralı olarkən Osman onu döyüş meydanından xilas etmişdir. Hans bu maraqlı görüşdən hədiyyə kimi Osmana dodaqda çalınan qormoşka hədiyyə edir.

Əməkdar artist Esmiralda Şahbazova Süsən və Suzanna rollarını olduqca nəcib, ləyaqətli, sədaqətli, insanpərvər qadın kimi təqdim edir, tamaşanın əvvəlindən sonuna kimi yaşadığı torpağa və onun adamlarına isti münasibətini, son nəfəsinə qədər Osmana sədaqətini göstərir. Bu mürəkkəb obrazların təqdimində hər iki sənətkar böyük ustalıq nümayiş etdirir, düşdüyü vəziyyətləri, daxillərində yaşadıqları duyğuları, hiss və həyəcanları maraqlı ifadə vasitələri ilə tamaşaçıya çatdıra bilirlər. Böyük Vətən müharibəsi illərində faşistlərə qarşı vuruşan qoca veteran Osman Şuşanın boşaldılmasından çox narahatlıq keçirir. Şəhərdə bir ins-cins olmadığını görəndə bərk əsəbiləşir, amma təmkinini pozmur. O, Süsəni zirzəmiyə illərdən bəri orada saxladığı tut arağını gətirməyə yollayır. Bu zaman otağa əli silahlı, üzü çapıqlı erməni daxil olub Osmanı öldürməklə hədələyir. Osman qımıldanmır, oturduğu yerdən qalxmır, Berlin qəhrəmanı olduğunu və ölümdən qorxmadığını bildirir. Erməni Osmanı xatırlayır, kəşfiyyat qrupunda döyüşdüklərini və Osmanın onu bir zamanlar faşistlərin arasında ölümcül buraxmadığını, çiynində daşıdığını yadına salır. Bu səhnədə Osmanın nə qədər insanpərvər, rəşadətli, etibarlı olduğu müqabilində onun cəbhədaşı çapıqlı erməninin riyakar xisləti, nankor və yaramazlığı təsvirlənir. Osman evinə soxulan erməniləri dələduzluğa görə qamçılayır, amma öldürmür, çünki o, qatil deyil, humanistdir.

Süsən tut arağı şüşəsini zirzəmidən qaldırıb Osmana gətirir. Osman heç nə olmamış kimi, onun narahatlığına səbəb yaratmır. Şüşəni sığallayaraq qırx doqquz il əvvəl toylarından qalmış bu arağı bu gün mayın 7-də qızıl toy günlərində açıb badələrə süzür. "Lənət olsun belə qızıl toya!" deyir. Stolun üstündəki şamları yandırır, əşyaları ilə vidalaşır. Süsənin qolundan tutub sandığa sarı gətirir və qapağı açmağı xahiş edir. Süsən toy libasını geyə bilməsə də toy fatasını başına qoyur. Avanssenada Osman və Süsən sonuncu sevgi valsının sədaları ilə sandığın üstə oturmaq istərkən güllə atılır. Səhnə qırmızı rəngə boyanır. Osman aldığı güllədən səndirləyib Süsənin yanında zorla otura bilir. Bu zaman atılan ikinci güllə Süsənə dəyir. Qoca sevgililər cismən ölsələr də, insanlığın təntənəsi ideyasını gələcək nəslə, tamaşaçıya çatdıra bilirlər. Tamaşadakı digər rollarda əməkdar artist Vaqif Kərimov (çapıqlı erməni), Natiq Həziyev (sovet əsgəri), Əhliman Ərşadlı (Henrix), Rövşən Cəfərov (Azərbaycan əsgəri), Ana (Sevinc Hüseynova), gənc Suzanna (Şəbnəm Cəbrayılova), Gülzar (Ayşən Mirzəyeva) və başqaları iştirak edirlər.

"Qanlı qızıl toy" tamaşasının bədii siqləti və ideyası humanizm prinsiplərinin, insanpərvərlik duyğularının dərk olunması cəhətdən təsirli və ibrətamizdir. Teatr tariximizdə maraqlı səhnə təcəssümü ilə yadda qalacaq tamaşa bu ilin aprelində 135 illiyi qeyd olunacaq İrəvan Dövlət Azərbaycan Dram Teatrının vətənpərvərlik mövzulu maraqlı sənət nümunəsi kimi repertuarı daha da zənginləşdirdi.

